## 1. QAYDALARIN PREDMETİ

1.1. Bu qaydaların predmetini, “Honours Academy” tərəfindən Tələbənin internet üzərindən (online) tədris xidmətinin göstərilməsi, ”Tələbə” tərəfindən isə xidmətin təhvil alınması, xidmət haqqının ödənilməsi və digər öhdəliklərlə bağlı yaranacaq münasibətlərin tənzimlənməsi təşkil edir. Online tədris xidmətinin haqqı ödəniş qəbzi ilə müəyyən olunur.

## 2.TƏRƏFLƏRİN HÜQUQ VƏ ÖHDƏLİKLƏRİ

### 2.1. TƏLƏBƏ

2.1.1. “Honours Academy”-nin proqramına uyğun online dərslərdə iştirak edir;
2.1.2. Tələbəyə fors-major halları (xəstəlik, iş ezamiyyəti, yaxınının vəfatı və s) nəzərə alaraq yalnız 1 (bir) dəfə dərs buraxmaq imkanı verilir. Tələbə təlim ərzində 2 (iki) dəfə və ya daha çox dərsdə iştirak etməzsə, “Honours Academy”-nin keyfiyyətli nəticəyə zəmanət verməməsi ilə razılaşır;
2.1.3. Tələbə təlimin başlanması üçün təyin olunmuş vaxtdan gec olmayaraq, online dərsə qoşulmalıdır. Dərsin əvvəlində ev tapşırıqlarının yoxlanılması məqsədilə təşkil olunan qısa test imtahanı yekunlaşdıqdan sonra dərsə qoşulmaq istəyən tələbə üçün həmin dərsə qoşulma imkanı məhdudlaşdırılır.
2.1.4. Tələbə tədris olunan proqram üzrə keyfiyyətin əldə olunması üçün dərslərə hazırlıqlı qoşulur, verilən tapşırıqları məsuliyyətlə yerinə yetirir. Ev tapşırıqlarının hazırlıq səviyyəsinin yoxlanması məqsədilə hər dərsin əvvəlində verilən test sualları verilir. Tələbənin 2 (iki) və daha çox dərsə ev tapşırıqlarına hazırlıqsız gəldiyi müəyyən olunarsa, tələbə “Honours Academy”-nin keyfiyyətli nəticəyə zəmanət verməməsi ilə razılaşır;
2.1.5. Tələbə dərslərə öz ad və soyadı ilə qoşulmalıdır. Tələbənin dərsə öz ad və soyadı ilə qoşulmadığı müşahidə olunarsa, tələbə “Honours Academy”-nin keyfiyyətli nəticəyə zəmanət verməməsi ilə razılaşır;
2.1.6. Tələbə dərs müddətində üzrlü səbəblər olduğu hallar istisna olmaqla video-görüntünü açıq saxlamalıdır;
2.1.7. Ev tapşırıqlarının yoxlanması məqsədilə təşkil olunan test müddətində və sınaq imtahanları müddətində video-görüntünün açıq saxlanılması məcburidir. Əks halda nəticələr uğursuz kimi qeydə alınacaqdır.
2.1.8. Tələbə Honours Academy tərəfindən təşkil edilən daxili sınaq imtahanlarında təyin olunmuş vaxtda iştirak edərək ən azı 50 % nəticə əldə etməlidir. Əks halda tələbə “Honours Academy”-nin keyfiyyətli nəticəyə zəmanət verməməsi ilə razılaşır;
2.1.9. Tələbə “Honours Academy” tərəfindən təlimin bitməsi elan olunduqdan sonra 30 (otuz) təqvim günü ərzində ACCA sertifikatlaşdırma imtahanında iştirak etməlidir. Təlimin bitməsindən 30 (otuz) gün ötürərək imtahan verən tələbənin nəticəsinə görə Honours Academy məsuliyyət daşımır.
2.1.10. <u>Proqram üzrə tədris olunan hər bir dərsin ayrı-ayrılıqda qiyməti dərsin 1 (bir) saatına görə 50 (əlli) manat olmaqla hesablanır. Beləliklə tələbə iştirak etmədiyi dərsin əvəz olunmasını istəyərsə, bu zaman əlavə olaraq hər bir dərsin əvəz olunması üçün dərsin 1 (bir) saatına görə 50 (əlli) manat olmaqla ödəniş etməlidir.</u>
2.1.11. <u>Tələbə qeydiyyatdan keçdikdən sonra hər hansı bir səbəbdən təlimə qatılmaqdan imtina etmək istəyərsə, kursun başlanma tarixindən ən azı 5 (beş) iş günü əvvəl “Honours Academy”-yə müraciət edərək, ödəmiş olduğu ödənişi geri tələb edə bilər. Bu halda müqaviləni vaxtından əvvəl pozduğuna görə tələbənin Honours Academy-yə ödəmiş olduğu məbləğdən 50 (əlli) manat penya (cərimə) tutulmaqla ödənişin qalan hissəsi tələbəyə geri ödənilir. Kursun başlanmasına neçə gün qalmasından asılı olmayaraq tələbənin razılığı ilə ona tədris materialları verilərsə, tələbənin ödəmiş olduğu ödəniş geri qaytarılmır.</u>
2.1.12. <u>Tələbə bir və ya bir neçə dərsdə iştirak etdikdən sonra “Honours Academy”-dən asılı olmayan səbəbdən kursu tərk etmək istəyərsə və iştirak etdiyi təlim proqramı üzrə tələbənin kursa ödəməli olduğu qalıq borc məbləği qalarsa, kursun hesablanmış gəlirini pozduğuna görə qalıq məbləğin 50 (əlli) faizi ( minimum 50 manat olmaqla ) həcmində əlavə ödəniş etməlidir.</u>
2.1.13. <u>Tələbə təlim üzrə qeydiyyatdan keçdikdən, təşkil olunacaq qrupun vaxtı müəyyənləşdirildikdən və tələbə həmin qrup üzrə dərslərə başladıqdan sonra başqa qrupa keçirilməsini istəyərsə, digər qrupa</u>

keçirilməsi mümkün olduğu halda təlimin dəyərinin 100 (yüz) faizi həcmində əlavə ödəniş edərək, digər qrup keçirilə bilər.
2.1.14. "Honours Academy"-də nizam-intizama riayət edir;
2.1.15. Tədris zamanı "Honours Academy" tərəfindən ona verilən dərs materiallarının (elektron tədris vəsaiti, mühazirələr, sənəd nümunələri və s.) 3-cü tərəfə icazəsiz ötürülməməsinə təminat verir. Dərs materialları 3-cü tərəfə "Honours Academy"-nin razılığı olmadan ötürülərsə, Tələbə "Honours Academy"-yə təzminat öhdəliyinin yaranması ilə razılaşır.
2.1.16. Hər hansı bir narazılıq meydana gələrsə, bu barədə yazılı və ya şifahi şəkildə məlumat bölməsinə bildirə və ya birbaşa rəhbərliyə müraciət edə bilər;
2.1.17. Bütün dərslər ərzində müəyyən olunmuş qaydalar əsasında hər bir tələbənin tədris və nizam-intizam göstəricilərinin qeydiyyatı aparılır və hər dərsdən sonra 3 (üç) iş günü ərzində tələbələrin cari tədris göstəriciləri tələbəyə açıqlanır. Dördüncü dərsdən başlayaraq, cari tədris və nizam-intizam göstəricisi 5 (beş) baldan aşağı olan tələbə təlimlərdən kənarlaşdırılacaqdır. Bu halda tələbənin ödəmiş olduğu məbləğ "Honours Academy" tərəfindən geri ödənilmir və tələbənin "Honours Academy"-yə ödəməli olduğu qalıq borc məbləği tələbə tərəfindən ödənilməlidir.
2.1.18. Tələbə dərs müddətində məsuliyyətli və nizam-intizamlı olmazsa, təlimçi (müvafiq Honours Academy əməkdaşı) tərəfindən xəbərdalıq alacaqdır. Bu hal ikinci dəfə təkrarlanarsa, tələbə yazılı şəkildə (Whatsapp, sms və ya e-mail vasitəsilə) xəbərdarlıq alacaqdır. Bu hal üçüncü dəfə təkrarlanarsa, tələbə təlimlərdən kənarlaşdırılacaqdır və tələbənin ödəmiş olduğu ödəniş "Honours Academy" tərəfindən geri ödənilməyəcəkdir.
2.1.19. "Honours Academy"-də təlimə qatıldığı üçün "HDN Honours Scholarships" təqaüd proqramı tərəfindən təqaüdlə mükafatlandırılan tələbə "Honours Academy" tərəfindən onun məlumatlarının (ad, soyad, təhsil, iştirak etdiyi təlim, imtahan nəticəsi, fotoşəkli) reklam və karyera məqsədləri üçün paylaşılacağı ilə razılaşır.
**2.2. "Honours Academy"**
2.2.1. Online dərslərin verilməsini təmin edir;
2.2.2. Tədrisin keyfiyyətinə zəmanət verir;
2.2.3. Dərsin vaxtında keçirilməsini təmin edir;
2.2.4. Sınaq imtahanının dəqiq vaxtı barədə Tələbəyə ən azı 48 saat öncədən məlumat verir.
2.2.5. Bütün tələblərə əməl edən və rəsmi uğursuz nəticə göstərən tələbənin Honours Academy-yə ödəmiş olduğu təlim ödənişi tələbənin seçiminə əsasən tam olaraq geri ödənilir və ya müvafiq proqram üzrə ödənişsiz olaraq əlavə təlimə qatılmaq imkanı yaradılır.
2.2.6. Təlimin başlanma vaxtı haqqında ilk dərsin başlanma vaxtından ən azı 48 (qırx səkkiz) saat əvvəlcədən telefonla zəng edərək və ya Whatsapp mobil əlavəsi vasitəsilə ismarıc göndərərək tələbəni məlumatlandırır; Tələbə Whatsapp mobil əlavəsindən istifadə etmədikdə və ya "Honours Academy"-dən asılı olmayan səbəblərdən tələbə ilə telefon əlaqəsi yaratmaq mümkün olmadıqda, tələbəyə dərsin başlanma vaxtı ilə bağlı məlumatın verilməməsinə görə "Honours Academy" məsuliyyət daşımır.
2.2.7. Tədris prosesinə aid olan elektron dərs vəsaitlərini tələbəyə Whatsapp mobil əlavəsi vasitəsilə göndərir. Bundan başqa əsas dərslərin vaxtlarında baş vermiş dəyişikliklər, əlavə dərslər və sınaq imtahanlarının vaxtları barədə məlumatlar Tələbəyə Whatsapp mobil əlavəsi vasitəsilə çatdırılır. Tələbə Whatsapp mobil əlavəsindən istifadə etmədikdə və ya digər hallarda, tələbəyə elektron dərs vəsaitlərinin göndərilməməsinə və yuxarıda sadalanan məlumatların çatmamasına görə "Honours Academy" məsuliyyət daşımır;
2.2.8. "Honours Academy" tələbənin ən azı 1 (bir) dərsdə iştirak etməməsi halında keyfiyyətli nəticəyə görə məsuliyyət daşımır;
2.2.9. "Honours Academy" dərsi mənimsəmə səviyyəsi, məntiqi və riyazi bilikləri zəif olan tələbələrin proqramda nəzərdə tutulan mövzuları qeyd olunan müddətdə mənimsəməsinə təminat vermir və onlar üçün əlavə ödəniş almaqla kursun müddətini uzada bilər;

## 3.ÖDƏNİŞ MÜDDƏTİ, ŞƏRTLƏRİ VƏ QAYDALARI

3.1. Ödəniş tələbə qeydiyyata alındığı gün online formada həyata keçirilir.

## 4. TƏRƏFLƏRİN MƏSULİYYƏTİ

4.1. Hazırkı Müqavilədə nəzərdə tutulmuş tələblərin yerinə yetirilməsinə görə tərəflər qüvvədə olan qanunvericilikdə müəyyən edilmiş şərtlərlə və qaydada məsuliyyət daşıyırlar.

## 5. FORS-MAJOR

5.1. Tərəflərdən biri özündən asılı olmayan (təbii fəlakətlər, tələblərin yerinə yetirilməsinə əngəl törədən qanunvericilik aktlarının qəbulu və bu kimi) hallara görə Müqavilə şərtini pozduqda, bir həftə müddətində digər Tərəfi yazılı və ya şifahi surətdə xəbərdar etməlidir. Müqavilə üzrə öhdəliklərin yerinə yetirilməsi isə yuxarıda göstərilən vəziyyətin qüvvədə qaldığı müddətə qədər təxirə salınır.

5.2. Fors-major vəziyyətinin yarandığı barədə digər Tərəfi xəbərdar etməyən, yaxud ona vaxtında xəbər verməyən Tərəf hazırkı Müqavilənin "5.1." bəndindən istifadə etmək hüququndan məhrum olunur.

## 6. MÜBAHİSƏLƏRİN HƏLLİ QAYDASI

6.1. Bu Müqavilə üzrə, yaxud bununla əlaqədar Tərəflər arasında meydana çıxan bütün mübahisə və fikir ayrılıqları Tərəflər arasında danışıq aparmaq yolu ilə aradan qaldırılır.

6.2. Mübahisə və fikir ayrılıqlarını danışıqlar yolu ilə həll etmək mümkün olmadıqda, Azərbaycan Respublikasının qanunvericiliyinə əsasən məhkəmə qaydasında həll edilməlidir.

## 7. MÜQAVİLƏNİN FƏALİYYƏT MÜDDƏTİ, DƏYİŞDİRİLMƏ VƏ LƏĞVİ QAYDASI

7.1. Bu müqavilə Tərəflərin onu imzaladıqları andan qüvvəyə minir və bütün öhdəliklər yerinə yetiriləndək qüvvədədir.

7.2. Hazırkı Müqavilənin şərtləri yalnız Tərəflərin qarşılıqlı razılığına əsasən dəyişdirilə bilər. Hazırkı Müqavilənin dəyişdirilməsi və ona əlavə edilməsi haqqında Saziş yalnız o zaman bağlana bilər ki, yazılı surətdə tərtib olunsun və Tərəflərin ikisi də onu imzalasın.

## 8. YEKUN MÜDDƏALAR

8.1. Hazırkı Müqaviləyə qoşulan Əlavə(lər) onun ayrılmaz hissəsidir.

8.2. Qarşılıqlı tələblər yerinə yetirildikdən, Tələbə və "Honours Academy" arasındakı bütün ödəniş hesablaşmaları tənzimləndikdən sonra Müqavilə bitmiş hesab olunur.